UOT 479

*Y.İ.Süleymanov*
*Gəncə Dövlət Universiteti*
*Gəncə ş., H.Əliyev pr., 429*
*E-mail: ysuleyman@mail.ru*

# MÜSƏLMAN DÜNYASINA QARŞI SƏLİB (XAÇ) YÜRÜŞLƏRİ

*Çox qədim zamanlardan etibarən Avropa ilə Yaxın Şərq arasında güclü əlaqələr mövcud olmuşdur. Bu iki böyük məntəqə arasında tarixən çoxlu müharibələr olmuş, nəticədə geniş əraziləri əhatə edən imperiyaların yaranmasına səbəb olmuşdur. Onlar əsasən o dövrdə mövcud olan dünyanın siyasi səhnəsində hegemonluq etmək məqsədi ilə sonu bilinməyən uzun uzadı mübarizələrə başlamışdılar. Bu siyasi mübarizələr nəticəsində bu bölgələrin mədəni və ictimai əlaqələri də güclənmişdi. Qədim zamanlardan başlayan Yunan-İran müharibələri, sonra Roma-İran müharibələri bu bölgələrin siyasi və mədəni tarixində çox böyük bir iz qoymuşdu. Orta əsrlər dövründə də bu mübarizə sona yetməmiş, əksinə mübarizələr dini və məzhəb xarakteri daşıyaraq daha da şiddətlənmişdi. Məlum olduğu kimi, VII əsrin əvvəllərində İslam dininin meydana gəlməsindən sonra Yaxın Şərq ölkələrinin tarixində çox böyük dəyişikliklər baş verdi. İslam dini öz mütərəqqi qanunları ilə bu ərazidə olan ölkələrin mədəni və elmi baxımdan həddən artıq inkişaf etməsinə səbəb oldu. Xristian kilsəsinin əksinə olaraq İslam dini elmin və azad fikrin qarşısına heç bir qadağalar qoymadığına görə müsəlman xalqları tez bir zamanda böyük elmi və mədəni hakimiyyətlərə sahib olmuşdular.*

*Açar sözlər:* Şərq, Qərb, xaç yürüşləri, silahlı mübarizə, kilsə, Avropa

İslam dininin bu ərazilərdə geniş yayılmasından və möhtəşəm İslam xilafətinin yaranmasından sonra müsəlmanlar qərbə (Avropaya) doğru hərəkətə başlamış, Avropada Siciliya, İtaliya, İspaniya kimi əhəmiyyətli bölgələr müsəlmanların əlinə keçmişdi. Müsəlmanların bu cür sürətlə inkişafı Qərb dünyasında böyük bir vəhşət və qorxu hissi yaratmışdı. Lakin xristian dünyası bu böyük tərəqqi və inkişafın qarşısını alıb məhv etmək iqtidarında deyildi.

Xristianların müqəddəs hesab edib və hər il ziyarət etdikləri Qüds şəhəri müsəlmanların əlində olduğu üçün katolik kilsəsinin nümayəndələri bu şəhəri işğal edib Roma papasının hakimiyyəti altına gətirmək niyyəti ilə yaşayırdılar. Lakin bu fikri həyata keçirmək üçün əlverişli şərait və siyasi bir zəmin meydana gəlməmişdi. Deməli, gələcəkdə Xaç yürüşlərinin meydana gəlməsinə şərait yaradan ən mühüm və başlıca səbəb Qüdsü ələ keçirib xristianların bir mərkəziyyətinə çevirmək və bununla da müsəlman dünyası qarşısında böyük bir sədd çəkmək məqsədi idi. Əgər bu həll olunardısa, artıq İslam dininin qarşısını alınmış və xristian kilsəsinin Yaxın Şərqdə geniş şəkildə yayılması imkanı əldə edilmiş olurdu. Bu səbəb Avropanın siyasət adamları üçün də çox əlverişli olurdu, çünki onlar bu xaç yürüşləri nəticəsində yeni-yeni torpaqlar ələ keçirib öz qüdrətlərini möhkəmlədirdilər.

X-XI yüzilliklərdə müsəlman aləmində əhəmiyyətli siyasi dəyişikliklər baş verdi. Mərkəzi Asiyadan Səlcuq türkləri Xorasan yolu ilə qərbə doğru irəliləməyə başladılar. İslam dinini qəbul etmiş Səlcuq türkləri xilafətin böyük əraziləri ələ keçirib öz sultanlıqlarını yaratmağa başladılar. Yaxın Şərqdə Səlcuq sultanlıqlarının yaradılması Abbasilər xilafətinin (750-1258) əsaslarını sarsıtdı. Ərəb xilafətinin İran, Suriya, İraq kimi böyük və strateji əhəmiyyət daşıyan əraziləri səlcuq türklərinin əlinə keçdi. Eyni zamanda səlcuq türkləri

Anadoluya da hərbi səfərlər edərək burada özlərinin Konya sultanlığını yaratmış oldular. Müsəlman olan səlcuq türkləri Anadoluda Mərmərə dənizinə qədər bütün əraziləri ələ keçirdiklərinə görə xristian Bizans imperiyası çox böyük bir təhlükə ilə üzləşmiş oldu. Buna görə də Bizans imperatoru Aleksey Komnin katolik xristian dünyasının papası II Urbana tez-tez elçilər göndərərərk, bu təhlükənin böyüklüyünü anladaraq imperatordan dönə-dönə yardımlar istəmişdi. Bizans ortodoksal kilsəli katolik kilsəsi ilə aralarındakı ixtilaflara baxmayaraq, səlcuq türklərinin yaratdığı bu təhlükə onları ittifaqa girməyə məcbur etmiş və Roma papası II Urbanı bu məsələ barəsində tədbirlər görməyə vadar etmişdi.

Buna görə də Roma papası II Urban 1095-ci ilin noyabrında Fransanın Klermon şəhərində xalq qarşısında çıxış edərək hamını müsəlmanlara (xüsusən də türklərə -Y.S.) qarşı "müqəddəs müharibəyə" – cihada dəvət etmiş və müqəddəs Qüds (Yerüsəlim-Y.S.) şəhərini günahkarların (oxu: müsəlmanların-Y.S.) əsarətindən xilas etməyə çağırmışdı. Bütün Avropa xalqları da Roma papasının bu çağırışına müsbət cavab verərərk Şərqə doğru xaç yürüşlərinə başlamaq qərarına gəlmişdilər. 1097-ci ilin yazında əksəriyyəti fransızlardan və normandlardan ibarət olan 150 min nəfər qərbli (oxu:xristian-Y.S.) Qüdsü azad etmək məqsədi ilə Konstantinopol şəhərinə toplanmışdı. Öz sinələrinə dini əlamət rəmzi kimi olaraq xaç işarəsi vurduqlarına görə onlara "Xaçlılar" deyilmişdi.

Xaçlıların Anadoluya ilk yürüşləri ərəfəsində Anadolu Konya sultanı Qılınc Arslanın (1092-1107) hakimiyyəti altında idi. Xaçlılar ilk olaraq Konya sultanlığına hücum edərək bir aylıq mühasirədən sonra Qılınc Arslanın qüvvələrini məğlubiyyətə uğradıb, bu ərazini yenidən işğal etdilər. Bununla da Anadoluda başlamış olan islami-türk fəthlərinin müddəti bir neçə əsr yubadılmış oldu.

Sonra xaçlılar ( oxu: avropalılar – Y.S.) hücumlarını davam etdirərək Antakiyaya basqın etdilər. O zaman Antakiya Səlcuq sultanı Məlikşahın (1072-1092) təyin etdiyi Yağı Siyanın hakimiyyəti altında idi. Şəhərdə olan müsəlmanlar qəhrəmanlıqla şəhəri xristianlardan müdafiə edirdilər. Lakin bir ermeninin xəyanəti nəticəsində xaçlılar şəhərə daxil ola bildilər, şəhər xaçlıların əlinə keçdi.

Xristianlar (xaçlılar-Y.S.) cənuba doğru yürüşlərini davam etdirərək, 1099-cu ildə müqəddəs Qüds (Yerüsəlim) şəhərinə basqın etdilər. Bir ay davam edən şiddətli mübarizədən sonra nəhayət xristianlar şəhərə daxil ola bildilər. Xristianlar burada yerli müsəlmanlara qarşı son dərəcə vəhşiliklər törətməyə başladılar. Onlar uşağa, qadına, qocaya heç kimə aman vermədən hamını qılıncdan keçirdilər. Xaçlıların müsəlman şəhərlərini işğal etdikdən sonra törətdikləri vəhşiliklər onların islam dininə qarşı içlərində əsrlər boyu yaşatdıqları kin və düşmənçiliyin bariz nümunəsi idi. O zaman müsəlman ümməti necə də vəhçi bir əxlaqa sahib olub, insani dəyərlərdən uzaq olan qövmün əsarətinə düşdüklərini dərk etdilər. Müxtəlif əqidələrdən və müxtəlif siniflərdən təşkil olunmuş böyük kütlənin necə də məqsədyönlü şəkildə bir araya gələrək müsəlman dünyasını məhv etmək niyyətləri artıq müsəlmanlara bəlli olmuşdu. Məqsədyönlü şəkildə aparılan xaç yürüşlərindən sonra xaçpərəstlər, yəni avropalılar, tez bir zamanda bu ərazilərdə dövlətlərini yaratmağa başladılar. Onlar Antakiyada Antakiya, Qüdsdə Qüds, Edessada Edessa krallıqlarının əsaslarını qoydular. Xristianlar bu ərazilərdə öz krallıqlarının əsasını qoyduqdan sonra müsəlmanları şiddətli bir şəkildə bu ərazilərdən sıxışdırmağa başladılar. Qüds krallığı xristianların mərkəzinə çevrildi, digər kontluqlar və şahzadələrin hakimiyyətləri isə Qüdsə tabe olan muxtar idarəçilik formasında idilər.

Lakin xaçlıların bu ərazilərdə hegemonluğu müsəlmanlarda böyük mənəvi təsirlər qoyaraq, öz əqidələri və torpaqları uğrunda mübarizəyə qalxmaq hissi oyadırdı. Xaçlı dövlətlərinə qarşı ilk mübarizə və üsyan Mosul atabəyi İmaduddin Zənginin adı ilə bağlıdır. Sultan Məlikşahın türk soyundan olan bir köləsinin oğlu olan Zəngi, Hələb, Hərran və

Mosulda özünə bir bəylik yaratmışdı. Zəngi xaçlılara qarşı mübarizəyə qalxaraq 1144-cü ildə Edessa (indiki Urfa) şəhərini xaçlılardan azad edərək ilk xaçlı dövlətinin varlığına son qoydu. Zənginin bu qələbəsi xaçlılara qarşı mübarizə ruhunu müsəlmanlar arasında daha da alovlandırdı. Lakin Zənginin bu qələbəsi Alman kralı Konradın və Fransa kralı VIII Lüdovikin müsəlmanlara qarşı təşkil etmiş olduqları II Xaç yürüşü (1147-1149) ilə eyni bir vaxta düşürdü.

Din uğrunda cihad edən edən Zənginin Suriya torpaqlarında mübarizəsini onun oğlu Nuruddin Mahmud davam etdirdi. Nuruddin özünü atasından da mübariz göstərərək Antakiyada bir çox əraziləri xristianlardan almış və onun hakimi III Bohemundu Tripolidə olan müttəfiqi III Raymondla birlikdə əsir də götürmüşdü.

Lakin xristianlar qarşısında, daha doğrusu xaçlılar qarşısında müsəlmanların mübarizəsinin ən mühüm dövrü Səlahəddin Əyyubinin adı ilə bağlıdır. Səlahəddin Əyyubinin mübarizəsi demək olar ki, xristianların ( oxu: avropalıların – Y.S.) məhvinə səbəb olmuş və onların bu ərazilərdən çıxarılmaları ilə nəticələnmişdi.

Səlahəddin Əyyubi 1138-ci ildə Dəclə çayı yaxınlığında yerləşən Tiqritdə kürd əsilli bir kişinin ailəsində dünyaya göz açmışdı. O, gənclik illərini Suriyada keçirmişdir. Suriya sultanı Nuruddin Fatimilər sülaləsinin (969-1171) xəlifəsinin zəifliyindən istifadə edərək 1169-cu ildə bir mübarizə nəticəsində öz adamı olan Şirkuhu Misirdə Fatimi xəlifəsinin vəziri təyin etməsinə nail oldu. Lakin onun ölümündən sonra qardaşı oğlu Səlahəddin onun yerinə vəzir olmuşdu. 1171-ci ildə Səlahəddin Əyyubi Fatimilər sülaləsinin hakimiyyətini süquta uğradaraq xütbələrdə Abbasi Xəlıfəsinin oxunmasını əmr etdi. 1174-cu ildə isə Nuruddinin ölümündən sonra Suriyanı da ələ keçirərək özünü bu ərazilərin müstəqil hakimi elan etdi. Səlahəddin Əyyubinin mübarizəsi əsas iki istiqamətdə idi. Əvvəlcə o, bütün müsəlmanlar yaşayan ərazilərini bir mərkəz ətrafında birləşdirmək, sonra isə xaçlılara qarşı cihadı gücləndirib müsəlmanları xaçlıların işğalından azad etmək idi. Səlahəddin Əyyubinin xaçlılara qarşı apardığı mübarizələri və qələbələri neçə illər müsəlman mübarizlərinin xəyallarında yaşatdığı fikirlərin və ideyaların reallığa , gerçəkliyə çevrilməsi idi.

Səlahəddin Əyyubi müsəlman ümmətindən böyük, güclü bir dövlət yaratdıqdan sonra xristianlara-xaçlılara qarşı mübarizəyə başladı. 1187-ci ildə Səlahəddinlə xaçlılar arasında bağlanmış əhdnaməni pozaraq müsəlmanlara qarşı vicdansızlıq edən və dini əhaliyə əziyyət vermiş xaçlıların başçısı Raymondu əsir alıb öldürdükdən sonra xaçlılara böyük bir zərbə vurulmuş oldu. 1187-ci il iyunun 5-də Hattin şəhəri yaxınlığında Səlahəddin Əyyubinin başçılıq etdiyi müsəlman ordusu ilə xaçlı cəngavərlərin hərbi qüvvələri arasında amansız, şiddətli və qanlı döyüş baş verdi Bu döyüş Səlahəddin Əyyubinin tarixi zəfəri, xaçlıların isə rüsvayçı məğlubiyyətləri ilə nəticələndi. Hattin döyüşündə müsəlmanların qazandığı bu böyük qələbə xaçlıların sonunu müəyyən edən bir qələbə oldu. Bu şanlı döyüşdən bir həftə sonra əzəmətli müsəlman ordusu Qüds şəhərini işğalçı xaçlıların əsarətindən azad etdi. Məscidül-Əqsada yenidən müəzzinlərin azan səsi kilsə zənginin səsini əvəz etdi. Qüdsün xaçlılardan azad edilməsi Xaçlı krallığının məhv edilməsi və İslamın böyük zəfəri idi.

Müqəddəs Qüds (Yerüsəlim) şəhərinin müsəlmanların əlinə keçməsi bütün Avropanın silkələnməsinə və ayağa qalxmasına səbəb oldu. Kilsələr arasında olan daxili çəkişmələr kənara qoyuldu. Almaniya imperatoru I Fridrix Barbarossa (1152-1190), İngiltərə kralı Şirürəkli I Riçard (1157-1199) və və Fransa krallığı Üçüncü Xaç Yürüşünə (1187-1192) başladılar.

İngiltərə kralı Şirürəkli I Riçard ilə Səlahəddin Əyyubi arasında gedən qızğın mübarizələrdə Səlahəddin Əyyubi çoxlu qəhrəmanlıqlar nümayiş etdirmişdi. Bu mübarizə 1192-ci ilə qədər davam etmiş və Səlahəddin Əyyubi ilə Şirürəkli I Riçard arasında sülhün basğlanması ilə nəticələnmişdi. Bu sülh barışıqlarına əsasən dəniz kənarı ərazilər xaçlılara,

qalan ərazilər isə müsəlmanlara aid edilmiş və xristianlara Qüdsü (Yerüsəlimi) öz məzhəblərinin qanunlarına əsasən ziyarət etmək icazəsi verilmişdi.

Səlahəddin Əyyubi böyük dövlət xadimi olmaqla yanaşı eyni zamanda böyük bir din xadimi də idi. O, alimlərə çox böyük hörmətlə yanaşar, fiqh, kəlam, hədis kimi dərin İslami elmlərlə məşğul olardı.

1193-cü ildə bir xəstəlik nəticəsində vəfat edən Səllahəddin Əyyubidən sonra onun böyük məmləkəti oğlanları arasında bölüşdürüldü. Səlahəddin Əyyubidən sonra da qərblilər (oxu: avropalılar – Y.S.) tərəfindən Şərqə doğru xaç yürüşləri təşkil olunmuşdu. Lakin müsəlmanlar arasında xaçlılara son zərbəni vuran Misirdə hakimiyyətə gəlmiş məmlüklərin 4-cü sultanı əl-Məliküz-Zahir Sultan Baybars (1160-1227) oldu. Sultan Baybarsın hücumları nəticəsində xaçlıların əlində qalan bütün məntəqələr bir-birininin ardınca müsəlmanlara təslim oldu. 1263-cü ildə Sultan Baybars əl-Kərək şəhərini ələ keçirdi. 1265-ci ildə isə o, Qeysəriyyə limanını ələ keçirdi. Baybarsın hücumları xaçlıların əzmini tamamilə qırmışdı. Sultan Baybarsın ölümündən sonra mübarizəni onun varisi Kalavun davam etdirdi. Beləliklə, işğalçı xarakterli xaçlı yürüşləri başa çatdı. Müsəlmanlar ardı-arası kəsilməyən böyük işğaldan qurtarmış oldular. Lakin bu xaç yürüşləri nəticəsində xaçlılar böyük İslam mədəniyyəti ilə tanış oldular. Nəticədə İslam mədəniyyəti Avropa mədəniyyətinin formalaşmasında misilsiz töhfələr verdi.

## ƏDƏBİYYAT

1. Orta Əsrlər Tarixi. Dərslik, II cilddə, I cild, Bakı, 1988.
2. К.Э. Босворт “Мусульманские Династии», Москва, 1971.
3. М. А. Заборов « Крестовые Походы», Москва, 1956.
4. М. А. Заборов «Крестоносцы и Их Походы на Восток», Москва, 1962.
5. Л. Семенова «Салахаддин и Его Время», Москва, 1967.
6. R.Şeşən. “Səlahəddin Əyyubi və Onun Devleti” Ankara,1987.
7. C.Nehru. “Ümumdünya Tarixinə Bir Nəzər”, Bakı, 1986.

УДК 479

*Я.И.Сулейманов*
*Гянджинский Государственный Университет*

## КРЕСТОВЫЕ ПОХОДЫ ПРОТИВ МУСУЛЬМАНСКОГО МИРА
*РЕЗЮМЕ*

*Ключевые слова:* Восток, Запад, крестовые походы, борьба, церковь, Европа

Прочные связи существовали между Европой и Ближним Востоком с древних времен. Исторически сложилось так, что между этими двумя большими областями было много войн, в результате которых были созданы империи, охватывающие большие территории. Они начали долгую и бесконечную борьбу за гегемонию на существовавшей в то время политической сцене мира. В результате этой политической борьбы также укрепились культурные и социальные связи этих регионов. Начавшиеся в глубокой древности греко-иранские войны, а затем римско-иранские войны оставили огромный след в политической и культурной истории этих регионов. Даже в Средние века эта борьба не прекратилась, наоборот, борьба обострилась, носила религиозный и сектантский характер. Как известно, после возникновения ислама в начале VII века в

истории ближневосточных стран произошли большие изменения. Религия ислам с ее прогрессивными законами привела к тому, что страны этой области чрезмерно развились в плане культуры и науки. В отличие от христианской церкви исламская религия не накладывала никаких ограничений на науку и свободомыслие, поэтому мусульманские народы быстро обрели большие научные и культурные силы.

UDC 479

*Y.I.Suleymanov*
*Ganja State University*

CRUSSAS AGAINST THE MUSLIM WORLD
*SUMMARY*

*Key words:* East, West, crusades, struggle, church, Europe

Strong ties have existed between Europe and the Middle East since ancient times. Historically, there have been many wars between these two large areas, resulting in the creation of empires covering large areas. They began a long and endless struggle for hegemony on the then existing political scene of the world. As a result of this political struggle, the cultural and social ties of these regions have also been strengthened. The Greco-Iranian wars that began in ancient times, and then the Roman-Iranian wars, left a huge mark on the political and cultural history of these regions. Even in the Middle Ages, this struggle did not stop, on the contrary, the struggle escalated, was of a religious and sectarian nature. As you know, after the emergence of Islam at the beginning of the VII century, great changes took place in the history of the Middle Eastern countries. The religion of Islam, with its progressive laws, has caused the countries of this region to become overdeveloped in terms of culture and science. Unlike the Christian Church, the Islamic religion did not impose any restrictions on science and free thinking, so the Muslim peoples quickly gained great scientific and cultural strength.

***Daxil oldu: 07.02.2023-cü il***